

*Çırpınırdı Qara dəniz*
*Baxıb Türkün bayrağına*
*"Ah" edərdim, heç ölməzdim*
*Düşə bilsəm ayağına!..*

Qol-boyun olduğu məmləkətin azadlığı üçün çarpışanların mübarizəsini şahə qalxan dalğalarıyla salamlayır, "salam Türkün bayrağına!", "qurban Türkün bayrağına!", "heyran Türkün bayrağına!", "yol ver Türkün bayrağına!" - deyirdi Qara dəniz. Coşur sanki düşünən beyinlərə, vuran qollara qüvvət verirdi Qara dəniz.

# "Teknofest-Azərbaycan" - dünyaya daha bir mesaj

## Ay-ulduzlu bayraqlarımız daim qoşa dalğalanacaq




O gün isə növbə Xəzərin idi, çırpınır, lap ləpədöyənində qoşa dalğalanan ay-ulduzlu Azərbaycan-Türkiyə bayraqlarına baxıb sevinir, qoynuna sığındığı, qədim tariximizin müəyyən dövrlərində bölünən, itirilən, nəhayət, bütövləşən torpağımızın, ondan ötrü can verməyə hazır, qan tökməyə qadir övladlarının bu xoş günündə sakit-sakit ləpələnirdi. Eşitdiyi, duyduğu mesajları dünya sularına, oradan da dostlarımıza, bədxahlarımıza çatdırmağa tələsirdi.

Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı minnətdarlıq duyğusundan qaynaqlanmışdı. Azərbaycan-Türkiyə münasibətlərindən danışır, bu əlaqələrin strateji xarakter daşıdığını, dostluq, qardaşlıq prinsiplərinə əsaslandığını deyirdi. Böyük qürur hissi ilə söyləyirdi ki, iki ölkə arasında münasibətlər ən yüksək səviyyədə inkişaf edir. Vətən müharibəsi zamanı Türkiyənin Azərbaycana verdiyi güclü siyasi və mənəvi dəstəyin buna bariz nümunə olduğunu, dövlət başçılarının uğurla davam edən səmimi dostluq və qardaşlıq münasibətlərinin, tərəfdaşlığın genişləndirilməsinə verdikləri böyük önəmin bu əlaqələrin dərinləşdirdiyini vurğulayırdı: "Yüz dörd il əvvəl müsəlman aləmində Azərbaycan xalqı ilk xalq cümhuriyyətini qurmuşdur. Əfsuslar olsun ki, Azərbaycan Xalq Cümhuriyyətinin ömrü uzun olmadı, iki ildən sonra süqut etdi və Azərbaycan öz müstəqilliyini itirdi. Yalnız 1990-cı illərin əvvəlində Azərbaycanın dövlət müstəqilliyi bərpa edildi və 30 ildir ki, Azərbaycan xalqı azad yaşayır, müstəqillik şəraitində yaşayır, öz həyatını özü qurur və müstəqillik yolu ilə inamla gedir. Bu 30 il ərzində türk qardaşlarımız daim bizim yanımızda olublar. Bu 30 il ərzində bu dəstəyi, bu qardaşlıq dəstəyini hər zaman hiss etmişik, bu gün də hiss edirik və bu gün Türkiyə-Azərbaycan yenə də bir yerdədir".

O, "Baykar" şirkətinin istehsalı olan pilotsuz uçuş aparatlarının (PUA) hərbi potensialımızı əhəmiyyətli dərəcədə gücləndirdiyini xüsusi qeyd edərək dedi ki, məhz həmin PUA-ların Vətən müharibəsində səmərəli tətbiqi nəticəsində düşmənə ciddi zərbələr vuruldu, işğalçının xeyli canlı qüvvəsi və döyüş texnikası məhv edildi. İki ölkə arasında hərtərəfli əməkdaşlığın əhəmiyyətindən danışarkən Azərbaycan Prezidenti Bakıda baş tutan "Teknofest" Aerokosmik və texnologiya festivalının birliyimizin növbəti nümayişi, onun təzahürü olduğunu, bu elm, inkişaf, bilik, texnologiya bayramını burada iştirak edən gənclərin hər zaman yadda saxlayacaqlarını bildirdi.

"Baykar" şirkətinin yaradıcılarından biri, türk dünyasının böyük oğlu, dünyaşöhrətli alim, Nobel mükafatı laureatı Əziz Sancarın gənclərimiz üçün örnək olduğunu deyən Azərbaycan Prezidenti İlham Əliyev Selçuk Bayraktarın xidmətlərini yüksək dəyərləndirdi: "İkinci Qarabağ savaşında məşhur "Bayraktar" PUA-larının rolunu indi bütün dünyada bilməyən yoxdur... Selçuk bəy də gənclər üçün gözəl örnəkdir, nümunədir. Əminəm ki, bizim gənclərimiz Selçuk bəy kimi olmağa çalışacaqlar... Bir də təvazökarlıqdan kənar olsa da, hesab edirəm ki, bu gün daha iki nümunə var - o da mənim qardaşımla mən. Biz ölkələrimizi müstəqillik yolu ilə irəliyə aparırıq. Mən dəfələrlə demişəm ki, Türkiyənin artan gücü bizi gücləndirir və bir-birimizə güc qataraq böyük dünya çapında bir güc mərkəzinə çevrildik".

Sonra söz Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğana verildi. Böyük türk elindən, sevincimizə, kədərimizə şərik olan, ürəkləri bizimlə döyünən, bugünkü uğurlarımıza bizim qədər sevinən 80 milyonluq türk xalqının salamını çatdıran Türkiyə Prezidenti Azərbayacan Xalq Cümhuriyyətinin qurulmasının 104-cü ilində, müstəqillik günündə xalqımıza xoş duyğularını çatdırdı, bundan sonra da Türkiyənin Azərbaycanın yanında olacağını bəyan etdi: "Can Azərbaycanın müstəqillik günündə sizlərlə bərabər olmaqdan böyük bir bəxtiyarlıq duyuram. Müstəqilliyin necə qazanıldığını, nə qədər də-



yərli olduğunu, çox yaxşı bilən bir millətin övladı olaraq müstəqillik günümüzü canı-qəlbdən təbrik edirəm. ...Bu gün isə küləyi sərt, insanı mərd bu gözəl paytaxtda - Bakıda bir başqa tarixi görüşə yenə birlikdə imza atırıq. Xəzərin incisi Bakıda "Bir millət, iki dövlət, tək festival!" şüarı ilə dünyanın diqqətində olan Aerokosmik və texnologiya festivalı - "Teknofest"i gerçəkləşdiririk".

Azərbaycan poeziyasına, onun dəyərli nümayəndələrinə böyük önəm verən, Azərbaycanla bağlı çıxışlarını hər zaman şeirimizin inciləri ilə bəzəyən Türk Cümhuriyyətinin lideri, xalqımızın qonaqpərvərliyindən, düşmənə əyilməzliyindən, çətin günün dostları olan xalqlarımızın eyni amal uğrunda apardığı mübarizədən danışdı. Yenə də ən çox sevdiyi misraları söylədi, Bəxtiyar Vahabzadənin "Azərbaycan-Türkiyə" şeirindən nümunə gətirdi. "Bir ananın iki oğlu, bir ağacın iki qolu" olan xalqlarımızın əbədi, əzəli qardaşlığından söz açdı: "Badi-kubədən - küləklər şəhəri Bakıdan, Nuru Paşanın komandanlığı ilə Qafqaz İslam Ordusunun azərbaycanlı qardaşlarımızla birgə mübarizə apardığı torpaqların hər qarışına, Natəvanın qəzəlinin eşidildiyi obalara, şəhidimiz Xudayar qardaşımızın mahnı söylədiyi diyarlara, Gəncəyə, Şuşaya, Füzuliyə, Laçına, Azərbaycanın hər bölgəsinə salam və sevgilərimi göndərirəm... Bu gün bir daha burada nümayiş etdirilən əbədi və əzəli qardaşlığımızı Rəbbim daimi etsin!".

Rəcəb Tayyib Ərdoğan ötən il iyunun 15-də iki lider arasında imzalanan Şuşa Bəyannaməsi ilə təsdiqlənən strateji müttəfiqliyimizin birgə əməkdaşlıq üçün yaratdığı imkanlardan, onun iştirakı ilə Azərbaycanda, Azərbaycan Prezidentinin iştirakı ilə Türkiyədə reallaşdırılan layihələrdən, açılış mərasimlərindən, iki ölkə gənclərinin qarşısında duran vəzifələrdən danışdı: "Mən sevgili gənclərimizə Azərbaycanın istiqlal şairi Əhməd Cavadın bir şeiri ilə müraciət etmək istəyirəm:

*Mən türk övladıyam, dərin ağlım, zəkam var.*
*Nə vaxtacan, çiynimizdə gəzəcək yağılar?*
*Nə qədər ki, hakimlik var, məhkumluq var, mən varam.*
*Zülmə qarşı üsyankaram, əzilsəm də, susmaram".*

O Əhməd Cavadın ki hələ 1914-cü ildə Çanaqqala savaşında könüllü şəkildə döyüşmüş, Türkiyənin istiqlaliyyəti uğrunda mübarizədə türk qardaşlarının, türk mehmetciklərinin şücaətindən, qəhrəmanlığından vəcdə gələrək yazmışdı "Qara dənizi". 1918-ci ildə isə dahi Üzeyir bəstəsi o misraları əsl türk marşına, bəlkə də bu soydan olanların əbədi himninə çevirmişdi.

Bəli, bu gün ölkəmiz təkcə iqtisadiyyat deyil, eləcə də humanitar, sosial, təhsil, rabitə və texnologiya, energetika, mədəniyyət, səhiyyə, məhkəmə, miqrasiya və s. müxtəlif sahələrdə dünyanın ayrı-ayrı ölkələri, beynəlxalq təşkilatlarla əməkdaşlıq edir. Təbii ki, Azərbaycan-Türkiyə əlaqələri isə ən yüksək səviyyədədir. İşğaldan azad edilən torpaqlarımızda aparılan bərpa-quruculuq layihələrinin gerçəkləşdirilməsi istiqamətində də qardaş ölkələrimiz birgə çalışır, Rəcəb Tayyib Ərdoğanın təbirincə desək, "yeni bir Qarabağ qururlar".

Keçirilən birgə tədbirlər isə bu əməkdaşlığı gücləndirməklə yanaşı, həm də bölgəyə dünyanın marağını artırır, Azərbaycan-Türkiyə əlaqələrini səf-nəzər etmək üçün dövlətlərə əsas yaradır. Bu günlərdə Bakıda keçirilən "Teknofest - Azərbaycan" festivalı da iki qardaş ölkənin liderlərini yenə də bir araya gətirmişdi. Layihənin təşkilatçısı olan "Baykar" şirkətinin texniki direktoru Selçuk Bayraktarın bir neçə gün respublikamızda olması, keçirdiyi görüşlər, Şuşaya səfəri, ardınca Rəcəb Tayyib Ərdoğanın ölkəmizə gəlişi, festivalda iştirakı iki ölkə gəncləri arasında keçirilən ağıl, zəka, intelekt yarışı "Teknofest" Azərbaycan-Türkiyə qardaşlığının zirvəsi kimi yenə də dünyaya mesaj oldu...

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**